# KREDİT (KREDİT XƏTTİ) VERİLMƏSİNƏ DAİR ÜMUMİ ŞƏRTLƏR

**Fərdi sahibkar/hüquqi şəxs**

## 1. Preambula:

- Bu Şərtlər Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 06.01.1994-cü il tarixli, 175 saylı lisenziyası, Azərbaycan Respublikasının qanunvericiliyi və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən "Premium Bank" ASC (bundan sonra- Kreditor) tərəfindən hüquqi şəxslərə və ya fərdi sahibkarlara (bundan sonra Borcalan) kredit (kredit xətti) verilməsi üzrə münasibətlərin tənzimlənməsi məqsədilə təbiq edilir;
- Bu Şərtlər özü-özlüyündə ayrılıqda müqavilə hesab edilmir;
- Bu Şərtlərdə nəzərdə tutulan münasibətlər Tərəflər arasında o zaman yaranmış hesab edilir və tənzimlənir ki, Borcalan tərəfindən kredit (kredit xətti) verilməsinə dair ümumi şərtlərdə (bundan sonra Şərtlər) anlayış verilmiş formada (şəxsən, elektron imzadan və ya şəxsi imzanın başqa analoqundan istifadə etməklə) müvafiq Müqavilələr imzalanmış (bağlanmış) olsun. Bu Şərtlər borcalanlarla nəzərdə tutulan məqsədlər üçün bağlanılan Müqavilələrin ayrılmaz tərkib hissəsi hesab olunur və bu barədə qeyd Borcalanlarla bağlanılan Müqavilələrdə öz əksini tapır;
- Bu Şərtləri qəbul edən tərəf xüsusi olaraq diqqətə çatdırılması üçün mətndə fərqləndirilmiş hissələrlə dəqiq tanış olmalı və müvafiq olaraq Şərtləri təklif edən tərəfin əməkdaşından həmin şərtlərin izah edilməsini tələb etməlidir. Bu Şərtlərdə nəzərdə tutulmuş qaydada Müqavilələrin bağlanması qeyd edilən şərtlərin qəbul edilməsi hesab edilir.
- Bu Şərtlər, habelə ona edilmiş bütün digər yenilənmələr Kreditor tərəfindən birtərəfli qaydada tərtib edilməklə Kreditorun rəsmi internet ünvanında yerləşdirilir.
- Bu "Şərtlər" üzrə "kredit" dedikdə, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə və hüquqi şəxs olan borcalanlara verilən və müvafiq Müqavilələrlə müəyyən edilmiş faizlər və (və ya) digər ödənişlərin ödənilməsi şərtilə, müəyyən edilmiş qaydada və müddətdə qaytarılmalı olan pul vəsaitləri başa düşülür.

Kreditor və Borcalan birlikdə "Tərəflər", ayrılıqda "Tərəf" adlandırıla bilər.
Müqavilə dedikdə, borcalan (lar) iradə ifadəsinin bildirilməsi yolu ilə təsdiq edilən müvafiq əqdlər başa düşülür.
Bu şərtlər bankın ofertası sayılır və borcalanın müvafiq Müqavilələri imzalamaqla ofertanı qəbul etməklə bu şərtlər müqavilə qüvvəsinə malik olacaqdır.

## 2. Kredit/kredit xətti şərtləri

2.1. Kreditin (kredit xəttinin) növü, təyinatı, məbləği, valyutası, müddəti, son qaytarılma tarixi, faizlər və onların hesablanması, komissiya və digər zəruri şərtləri borcalanlarla bağlanılması nəzərdə tutulan Müvafiq Müqavilələrlə müəyyən edilir. Verilmiş kredit məbləğindən yalnız müvafiq Müqavilələrdə göstərilmiş təyinat üzrə istifadə edilə bilər.
2.2. "Kreditor", nəzarət məqsədilə, müvafiq Müqavilənin qüvvədə olduğu bütün müddət ərzində "Borcalan"dan kreditin/kredit xəttinin təyinatı üzrə istifadə edilməsini təsdiq edən faktların və sənədlərin təqdim edilməsini tələb edə bilər və bu tələb verildiyi gündən "Borcalan" tərəfindən 1 (bir) iş günü ərzində yerinə yetirilməlidir. "Kreditor", kreditin/kredit xəttinin təyinatı üzrə istifadə edilməsinə nəzarət etmək üçün, aidiyyəti qurumlara və digər şəxslərə sorğu ilə müraciət etmək, o cümlədən dövrü monitorinqlər etmək səlahiyyətinə malikdir, "Borcalan" isə bu hüquqların həyata keçirilməsinə heç bir maneə törətməyəcəyinə dair öhdəlik götürür.
2.3. "Borcalan" kredit üzrə hesablanmış faiz borcunu kredit müddəti bitənədək **hər ay və yaxud müvafiq Müqavilələr ilə müəyyən edilmiş qaydada** ödəməyi öz öhdəsinə götürür.
2.4. Faizlər, o cümlədən gecikdirilmiş vaxt üçün hesablanan faizlər və digər haqlar yalnız borcun

qaytarıldığı günədək ödənilməmiş əsas borc qalığı məbləğinə hesablanır. Kreditə görə faizlər üzrə borc kreditdən istifadəyə görə gündəlik faiz dərəcələrinə və müvafiq dövr üzrə günlərin faktiki sayına əsasən müəyyənləşdirilir. Kredit xətti üzrə faiz borcu isə xətdən istifadə edilmiş məbləğə görə gündəlik faiz dərəcələrinə və müvafiq dövr üzrə günlərin faktiki sayına əsasən müəyyənləşdirilir.
2.5. Faizlər, kredit məbləğinin "Borcalan"ın müvafiq hesablaşma hesabına daxil olduğu gündən hesablanmağa başlanacaq və "Kreditor" tərəfindən tərtib edilmiş və Borcalanla bağlanmış Müqavilə ayrılmaz tərkib hissəsi hesab edilən ödəniş cədvəli üzrə "Borcalan" tərəfindən ödənilir.
2.6. "Borcalan" "Kreditor"dan müvafiq Müqavilələrlə müəyyən edilmiş şərtlərlə aldığı məbləği son qaytarılma tarixinədək, müəyyən edilmiş qaydada və vaxtında qaytarmağı qeyd-şərtsiz olaraq öz öhdəsinə götürür.
2.7. Borcalanla bağlanmış müvafiq Müqavilələrin tərkib hissəsi sayılan ödəniş cədvəli üzrə borcalan tərəfindən edilmiş ödənişlər o halda vaxtında icra edilmiş hesab edilir ki, müvafiq dövr üçün müəyyən olunmuş gün "Kreditor"un əməliyyat saatlarında (www.premiumbank.az/az/service-network/ saytında dərc edilir) müvafiq bank hesabına daxil olmuş olsun. Əgər ödəniş günü iş günü hesab olunmayan günə təsadüf edərsə, ödəniş, iş günü hesab olunmayan gündən sonra gələn növbəti iş günü ödənilməlidir. Əməliyyat saatları bitdikdən sonra ödəniş terminalı vasitəsilə və ya digər üsulla həyata keçirilən ödəniş növbəti iş günündən gec olmayaraq həyata keçirilən ödəniş hesab edilir.
2.8. "Borcalan" kredit/kredit xətti üzrə borcunu istənilən vaxt xəbərdarlıq etmədən tamamilə və ya qismən "Kreditor"a ödəyə bilər. Kredit borcunun vaxtından əvvəl qismən ödənildiyi halda kredit borcunun hesablanması hazırki ümumi şərtlərə, habelə Borcalanla bağlanılması nəzərdə tutulan Müqavilələrə uyğun aparılacaqdır.
2.9. Digər ödəniş üsulları vasitəsilə ödəniş edildikdə həmin terminallar vasitəsilə tutulmuş vəsaitlərə görə Kreditor heç bir məsuliyyət daşımır.
2.10. Bu şərtlərlə, habelə borcalanla bağlanılması nəzərdə tutulan Müqavilələrlə müəyyən edilən Kreditorun göstərdiyi xidmətlərə görə xidmət haqları (xərclər) Borcalanın müraciəti və Kreditorun razılığı ilə dəyişdirilə bilər.
2.11. Borcalanla bağlanılması nəzərdə tutulan Müqavilələrdə göstərilən ödəniş tarixinədək əsas borc və faizlər vaxtında ödənilmədikdə, həmin tarixdən vaxtı keçmiş borc əmələ gəlir və belə gecikdirilən əsas borc və faiz məbləği vaxtı keçmiş borc hesablarında əks etdirilir.
2.12. Gecikdirilmə faizləri borcalanın təsdiq etdiyi müvafiq Müqavilələrlə müəyyən edilən ödəmə günü üçün hesablanmış məbləğ həmin gün ödənilməzsə, gecikdirilmiş ödənilməmiş əsas borc məbləğinə görə, müəyyən edilmiş kredit öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edilmə günü üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi əlavə edilməklə hesablanır.
2.14. Kreditor hər zaman dəbbə pulunun (cərimənin) Borcalandan tələb etmək hüququnu özündə saxlayır.
2.15. Borcalan qeyd-şərtsiz olaraq "Kreditor"a hüquq verir ki, ödənilməmiş borcu, faizləri və gecikdirilmə faizlərini (cərimə) Borcalanın Kreditorda mövcud milli və xarici valyutada olan cari və digər hesablarından akseptsiz (Borcalanın razılığı olmadan, mübahisəsiz) qaydada silsin.
2.16. Borcalan ilə bağlanılması nəzərdə tutulan Müqavilələrlə üzrə «Kreditor»a ödəniləcək ödənişlər ödəmə tarixində "Borcalan"ın hesabına mədaxil etmək yolu ilə ödənilir. Yetərli miqdarda olmayan və ya artıq miqdarda edilən ödənişlərin öhdəliyin icrasından silinmə ardıcıllığı:

❖ Ödənişlərin gecikdirilməsinə görə borc olduqda:

Gecikdirilmiş əsas borc məbləği;
Gecikdirilmiş faiz borc məbləği;
Gecikdirilmiş ödənişlərlə bağlı gecikdirilmə faizləri;

❖ Əsas borc üzrə hesablanmış faiz məbləği;

❖ Əsas borc məbləği;

2.17. Bu şərtlər/borcalanla bağlanılması nəzərdə tutulan Müqavilələrlə kredit (kredit xətti) xarici valyutada verilərsə, kreditin (kredit xəttinin) verilməsi tarixindən və manata nisbətən həmin xarici valyutanın məzənnəsinin dəyişməsindən asılı olmayaraq, borcun “Kreditor”a milli valyuta ilə qaytarılması zamanı yenidən hesablama (məzənnə fərqi) ödəniş anında, Kreditorun müəyyən etdiyi məzənnə üzrə aparılır. Xarici valyuta ilə verilmiş kredit manatla və ya manatla verilmiş kredit xarici valyuta ilə ödənilərkən və ya Borcalanın sərəncamı olmadan silinərkən, həmin məbləğ kredit ödənilən və ya silinmə aparılan günə Kreditorun müvafiq olaraq valyutanın nağd və ya nağdsız alqı-satqısı üzrə mövcud olan satış kursu ilə konvertasiya edilərək Borcalanın borcunun ödənilməsinə yönəldilir.
2.18. “Borcalan” tərəfindən kreditin qismən vaxtından əvvəl ödənilməsi halında, kreditin qalıq müddətinə görə hesablanmış faizlər və (və ya) digər haqlar vaxtından əvvəl ödənilmiş məbləğə mütənasib olaraq azaldılır. Borcalandan aylıq tutulmalı məbləğ (əsas və faiz borcu, digər ödənişlər) silindikdən sonra hesabda artıq qalmış pul vəsaitləri borcalanın razılığı olmadan əsas borcun silinməsinə yönəldilir, bu halda “Borcalan” növbəti aylar üzrə ödənişlərini (əsas və faiz borcunu) vaxtında etməlidir. “Borcalan” müraciət etdiyi təqdirdə ona yeni ödəniş cədvəli təqdim edilir.
2.19. Kreditin qismən vaxtından əvvəl ödənilməsi halında “Kreditor”un razılığı ilə aylıq ödəniş məbləğləri saxlanılmaqla, ödəniş cədvəli üzrə kreditin müddəti azaldıla bilər. Bu halda “Tərəflər” arasında yeni ödəniş cədvəli imzalanır.
2.20. “Borcalan” tərəfindən yetərli miqdarda olmayan edilən ödənişlər “Kreditor” tərəfindən bu şərtlər/müvafiq Müqavilələrlə nəzərdə tutulmuş qaydada silinir.
2.21. Kredit ödənişləri bank hesabından köçürməklə, ödəniş terminalları ilə, nağd qaydada banka ödənilməklə həyata keçirə bilər. Qeyd edilən ödəniş üsullarından hər hansı birinin istifadəsinin mümkün olmaması “Borcalan”ı digər mümkün üsullardan istifadə etməklə ödənişləri vaxtında həyata keçirmək öhdəliyindən azad etmir.
2.22. Bu şərtlər, borcalanla bağlanılması nəzərdə tutulan müvafiq Müqavilələr üzrə borc məbləğinə hesablanmış faizlər hər ay (kredit xətti üzrə vəsaitdən istifadə tarixindən asılı olmayaraq, ayın tamamı borcalanla bağlanılması nəzərdə tutulan müvafiq Müqavilələrin bağlandığı günün sonrakı ayın həmin günü hesab edilir), əsas məbləğlər isə müddətin sonunda ödənilir – bu şərt kredit xəttinə dair münasibətlərə şamil edilir.
2.23. Borcalan əsas borc məbləğini güzəşt müddəti bitənədək tam şəkildə “Kreditor”a qaytararsa, həmin məbləğə heç bir faiz hesablanmır.
2.24. Faiz dərəcəsi kredit xəttinin yalnız istifadə olunmuş hissəsinə (güzəşt müddəti ərzində istifadə olunmuş hissə istisna olmaqla) hesablanacaqdır.
2.25. Təminatın predmetini və digər mühüm şərtlərini, o cümlədən qanunvericiliyin tələblərini özündə əks etdirən müqavilə bu şərtlərin/Müqavilələrin ayrılmaz tərkib hissəsi kimi “Tərəflər” (girov qoyan üçüncü şəxs olduqda onun tərəfindən də imzalanır) arasında bağlanır (təminat müqaviləsinin notarial təsdiq edilməsi qanunvericiliklə müəyyən edilmiş hallarda notariat ofislərində təsdiqləməklə) və qanunvericiliklə tələb edilən hallarda tələb hüququ dövlət qeydiyyatına alınır.
2.26. “Kreditor” Müqavilənin qüvvədə olduğu müddət ərzində “Borcalan”dan kreditin/kredit xəttinin tam ödənilməsi üçün istənilən təminat növü ilə (daşınar və daşınmaz əmlak, zaminlik və s.) təmin edilməsini, yaxud mövcud təminatın itirilməsi və yaxud dəyərinin azalması hallarında təminatın əvəz etməsini və ya təminatın təqdim edilməsini tələb edə bilər. “Kreditor” belə tələb irəli sürdükdə, “Borcalan” həmin tələbi aldığı gündən etibarən sonrakı 7 (yeddi) iş günü ərzində yerinə yetirməlidir.
2.27. Əgər kredit xəttinin təminatı kimi girov/ipoteka qoyulmuş əmlakın sığorta müddəti kredit xəttindən istifadə olunan məbləğin tam qaytarılmasına qədər bitərsə, bu halda, «Borcalan» qalıq borcun qaytarılması ehtimal edilən müddətə sığorta müddətini artırmalı və Sığorta müqaviləsinin müddətinin uzadılmasını təsdiq edən sənədi “Kreditor”a təqdim etməlidir. «Borcalan» bu vəzifəsini icra etmədikdə, “Kreditor” Sığorta Şəhadətnaməsinin müddətini 1 (bir) il müddətinədək uzadıb, kredit borcunu Sığorta Şəhadətnaməsinin uzadılması üçün ödədiyi məbləğ qədər artıra

bilər. Ödənilməmiş sığorta haqları da əsas borc məbləğini artırır.

## 3. Kreditin/kredit xətti üzrə istifadə edilmiş məbləğin və hesablanmış faizlər, gecikdirilmə faizlərinin vaxtından əvvəl qaytarılmasının tələb edilməsi qaydası

3.1. "Borcalan" tərəfindən bu şərtlər, müvafiq Müqavilələrlə üzərinə qoyulmuş və onlardan irəli gələn öhdəliklərin vaxtında və lazımi qaydada icra edilməməsi ilə nəticələnə bilən aşağıdakı hallarda Kreditor həmin Müqaviləyə vaxtından əvvəl birtərəfli qaydada xitam verə və kreditin/kredit xəttinin xitam müddətinə qədər hesablanmış faizi ilə birlikdə qaytarılmasını və gecikdirilmə faizlərinin ödənilməsini Borcalandan tələb edə bilər:
3.1.1. Borcalan davam edən 90 (doxsan) gün ərzində ona verilmiş kreditin/kredit xəttinin hissəsini və onun faizlərini tərəflər arasında bağlanmış və bu şərtlər/Müqavilələrin ayrılmaz tərkib hissəsi hesab edilən müvafiq qaydada təsdiq edilmiş ödəniş cədvəli üzrə ödəmədikdə;
3.1.2. Borcalan tərəfindən aylıq ödənişlər, əsas borcu, hesablanmış faizləri, digər haqların ödənilməsi müddətlərinin ardıcıl olaraq 2 (iki) dəfə 90 (doxsan) gündən az olmamaqla gecikdirildikdə;
3.1.3. Borcalan kreditdən və ya kredit xətti üzrə verilmiş məbləğdən təyinatına uyğun istifadə etmədikdə və ya kreditin/kredit xəttinin təyinatı üzrə istifadə edilməsinə bu şərtlər/Müqavilələrlə müəyyən edilmiş qaydada nəzarət etməyə imkan vermədikdə, şərait yaratmadıqda və ya tələb olunan sənədləri təqdim etmədikdə və ya bu şərtlər/ Müqavilələrlə müəyyən edilmiş digər öhdəliklərini pozduqda;
3.1.4. "Borcalan"ın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi (o cümlədən müqavilə bağlanılmazdan əvvəl baş vermiş və müqavilə bağlanılan anadək aradan qaldırılmamış pisləşmə "Kreditor"a sonradan məlum olduqda) və ya "Borcalan"ın borcverənə hər hansı yanlış məlumat verməsi səbəbindən borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;
3.1.5. "Borcalan borc öhdəliyinin icrasının təmin edilməsi üzrə müvafiq olaraq bu şərtlər/Müqavilə üzrə qeyd edilmiş vəzifəsini yerinə yetirmədikdə, "Kreditor"un cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə (məhv olduqda, xitam verildikdə və s.) və yaxud dəyəri azaldıqda (o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə) və bu hallarda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;
3.1.6. Təminata dair tələblər bu şərtlərdə/Müqavilədə göstərilən müddət ərzində borcalan tərəfindən yerinə yetirilmədikdə;
3.1.7. Təminat müqavilə(ləri)sində nəzərdə tutulmuş digər hallarda;
3.1.8. Borcalan tərəfindən Kreditoru aldatmağa yönəlmiş hər hansı bir hərəkətin edildiyi aşkar olunduqda, o cümlədən Borcalan özünün sahibkarlıq (təsərrüfat) fəaliyyəti, iqtisadi imkanları və bu şərtlərdən irəli gələn öhdəliklərin vaxtında və lazımi qaydada icrasına mənfi təsir edə biləcək digər faktlar (ödənilməmiş borcları, kreditorlar qarşısında icra edilməmiş borc öhdəlikləri, saxta sənədlərin təqdim edilməsi və s.) haqqında verdiyi məlumatların və təqdim etdiyi sənədlərin həqiqətə uyğun olmadığı aşkar olunduqda;
3.1.9. Qanunvericiliklə öhdəliyin vaxtından əvvəl icrasını tələb etmək hüququ nəzərdə tutulmuş digər hallarda.
3.2. Kreditin/kredit xəttinin vaxtından əvvəl qaytarılmasını tələb etmək üçün şərait yarandıqda, "Kreditor" bu şəraitin yarandığı haqqında Borcalana məlumat verir.
3.3. Kreditorun vaxtından əvvəl tələbetmə hüququ yarandıqda Borcalan Kreditor qarşısında üzərinə götürdüyü bütün öhdəlikləri tam icra etməlidir.
3.4. Əgər "Kreditor" bu şərtlərin/Müqavilədə nəzərdə tutulmuş hallarda öhdəliyə vaxtından əvvəl xitam verilməklə bütün borcu qaytarmağı "Borcalan"dan tələb edərsə, "Borcalan" həmin tələbi aldığı gündən gələn sonrakı gündən gec olmayaraq borcu qeyd-şərtsiz heç bir iddia irəli sürmədən qaytarmağı öz öhdəsinə götürür.
3.5. Kreditin/Kredit xətti üzrə borcun vaxtından əvvəl qaytarılmasını tələb etmək üçün şərait, Borcalanın kredit xəttindən istifadə olunmuş hissəni lazımınca qaytarmaq qabiliyyətinə əlverişsiz təsir göstərildiyini və ya göstəriləcəyini, yaxud kredit xəttinin istifadə edilməsi ilə əlaqədar olaraq

Kreditora maddi ziyan vurulduğunu və ya vurulacağını güman etməyə əsas verən hallarda yaranır.

**4. Tərəflərin hüquq və öhdəlikləri**

**<u>4.1. “Borcalan” aşağıdakı hüquqlara malikdir:</u>**

4.1.1. Kredit/kredit xətti üzrə borcu istənilən vaxt xəbərdarlıq etmədən tamamilə və ya qismən “Kreditor”a qaytarmaq (hazırki şərtlərin 2-ci bəndi nəzərə alınaraq) Bu halda, «Borcalan» kredit xəttindən istifadə olunduğu müddət üçün hesablanmış faizləri kredit xəttindən istifadə edilmiş məbləği ilə birlikdə «Kreditor»a ödəmək;

4.1.2. Kredit/kredit xəttindən bu şərlər tərəflər arasındakı müvafiq Müqavilələrə uyğun olaraq tam və ya qismən istifadə etmək;

4.1.3. Bu şərtlər və tərəflər arasındakı bağlanılması nəzərdə tutulan Müqavilə üzrə öhdəliklərinin icra edilməsini “Kreditor”dan tələb etmək;

4.1.4. Azərbaycan Respublikasının qanunvericiliyi, bu şərtlər və tərəflər arasındakı bağlanılması nəzərdə tutulan Müqavilələr ilə müəyyən edilən digər hüquqlarını həyata keçirmək;

**<u>4.2. “Borcalan” “Kreditor” qarşısında aşağıdakı öhdəlikləri qəbul edir:</u>**

4.2.1. Borcalan kreditin/kredit xəttinin istifadə edilmiş məbləğinə görə faizlərin bu şərtlər, habelə tərəflər arasındakı Müqavilə ilə müəyyən olunmuş qaydada və vaxtında ödəməyi öz öhdəsinə götürür;

4.2.2. Kreditin vaxtından əvvəl qaytarılmasını tələb etmək üçün ona məlum olan hər hansı şəraitin yaranması haqqında “Kreditor”a dərhal məlumat verməyi öz öhdəsinə götürür;

4.2.3. “Kreditor”un bu şərtlər/ Müqavilələrdə göstərilən hüquqlarının həyata keçirilməsini heç bir halda məhdudlaşdırmamaq və digər maneələr yaratmamağı öz öhdəsinə götürür;

4.2.4. “Kreditor”a vermiş olduğu hər-hansı məlumat(lar)da hər hansı dəyişiklik baş verdikdə dərhal “Kreditor”u məlumatlandırır;

4.2.6. Bu şərtlər/Müqavilə və qanunvericilik ilə müəyyən edilmiş bütün öhdəliklərini vaxtında və lazımi qaydada yerinə yetirməyi və onların pozulmasına yol verməməyi öz öhdəsinə götürür;

4.2.7. Kredit/kredit xəttindən təyinatına uyğun istifadə etmək və “Kreditor” tərəfindən nəzarətin həyata keçirilməsi, o cümlədən dövrü monitorinqlərin keçirilməsi üçün Kreditorın nümayəndəsinə lazımi şərait yaradacaq və müvafiq sənədləri ona təqdim edəcəkdir;

4.2.8. Kreditorun öz əməkdaşları və ya vəkil etdiyi digər şəxslər vasitəsilə Borcalanın maliyyə və iqtisadi fəaliyyətini yoxlamaq hüququnu təmin edəcəkdir;

4.2.9. Üçüncü şəxslər qarşısında qəbul edilən və əsas fəaliyyətlə bağlı olmayan bütün borc öhdəlikləri barəsində, habelə üçüncü şəxslərin öhdəliklər üzrə təminatları və ya zəmanətləri haqqında Kreditora dürüst məlumat verəcəkdir;

4.2.10. Hazırki şərtlər/tərəflər arasındakı bağlanan digər müqavilələr üzrə yaranmış öhdəliklərinin icrasına təsir edə biləcək və ya onunla bağlı olan, özünün cəlb olunduğu məhkəmə mübahisələri və icraatı ilə bağlı bütün sənəd və/və ya məlumatları dərhal Kreditora təqdim edəcəkdir;

4.2.11. Tərəflər arasındakı Müqavilələrin imzalandığı anda və onun qüvvədə olduğu müddət ərzində kreditləşməyə mane ola bilən halların olmadığını və (ya) mövcud olduğu halda onların aradan qaldırılması üçün müvafiq tədbirləri görməyi öhdəsinə götürmək;

4.2.12. Maliyyə vəziyyətinə dair sənədlər tələb olunduqda Kreditora təqdim edəcəkdir;

4.2.13. Hazırki şərtlər/tərəflər arasındakı bağlanan digər müqavilələr, Azərbaycan Respublikasının qanunvericiliyi üzrə digər öhdəlikləri yerinə yetirmək;

**<u>4.3. “Kreditor” aşağıdakı hüquqlara malikdir:</u>**

4.3.1. Bu şərtlər/habelə tərəflər arasında bağlanılması nəzərdə tutulan Müqavilələr, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş bütün hüquqları həyata keçirməklə yanaşı həmçinin, «Borcalan» tərəfindən müəyyən edilmiş tələblər pozulduqda, «Kreditor» tərəfindən tələb edilən sənədləri təqdim etmədikdə, onun ödəniş qabiliyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə, “Borcalan” borc öhdəliyinin icrasının təmin edilməsi üzrə bu şərtlərdə qeyd edilmiş

vəzifəsini yerinə yetirmədikdə öhdəlik üzrə tərəflər arasındakı müvafiq Müqaviləyə vaxtından əvvəl xitam vermək, “Borcalan”dan verilmiş kreditin/kredit xəttinin (hesablanmış faizlər və cərimələr daxil edilməklə tam qalıq borcunu) vaxtından əvvəl ödənilməsini tələb etmək;
4.3.2. “Borcalan”ı qabaqcadan xəbərdar etmədən cərimə sanksiyalarını, kredit/kredit xətti üzrə ödənilməmiş borc və hesablanmış faizlərin məbləğini akseptsiz qaydada (razılıq alınmadan) “Borcalan”ın cari və ya digər hesablarından silmək;
4.3.3. “Borcalan” üzərinə qoyulmuş öhdəliklər vaxtında və lazımi qaydada icra edilmədikdə, öhdəliklərin icrasının təminatı olaraq “Borcalan” və ya üçüncü şəxslər tərəfindən qoyulmuş təminatlara (mövcud olduqda) qanunvericiliklə müəyyən olunmuş qaydada tələblər irəli sürmək;
4.3.4. Bu şərtlər/Müqavilə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş Təminata dair tələblərin qeyd-şərtsiz yerinə yetirilməsini “Borcalan”dan tələb etmək;
4.3.5. “Borcalan” verilmiş krediti, habelə kredit xətti üzrə ayrılmış məbləği, onun bir hissəsini və ya hesablanmış faizləri tərəflərlə razılaşdırılmış qaydada ödəməzsə, kreditin (hesablanmış faizlərlə və cərimələrlə birlikdə) vaxtından əvvəl qaytarılmasını tələb etmək və (və ya) borcun ödənilməsi tələbini “Borcalan”ın mülkiyyətində olan əmlaklarına yönəltmək;
4.3.6. «Borcalan»ın razılığı olmadan, öhdəliklərin icrası ilə bağlı tələb etmə hüquqlarını tam və ya qismən digər şəxslərə ötürmək. Tələblərin ötürülməsi məqsədilə, «Kreditor» «Borcalan» haqqında məlumatları, kredit şərtlərini, sənədləri və Borcalandan əldə edilmiş digər məlumatları üçüncü şəxslərə ötürmək hüququna malikdir;
4.3.7. Qanunvericiliyə uyğun olaraq “Borcalan”ın kredit/kredit xətti öhdəlikləri barədə neqativ və/və ya pozitiv məlumatı Mərkəzləşdirilmiş Kredit Reyestrinə, “Kreditor”un üzvü olduğu Kredit Bürosuna, Azərbaycan Respublikasının Mərkəzi Bankına və digər dövlət orqanlarına və müəssisələrinə, o cümlədən xidmətlərin göstərilməsinin təmin edilməsi üçün digər şəxslərə (məlumatın məxfiliyi rejiminin qorunmasına zəmanət verməklə) təqdim etmək;
4.3.8. «Borcalan»ın maliyyə vəziyyətini və kredit/kredit xəttindən təyinatı üzrə istifadə etməsini yoxlamaq;
4.3.9. Borcalanın pul vəsaitini mübahisəsiz qaydada öz sərəncamı ilə “Kreditor”un təyin etdiyi məzənnə və şərtlər ilə daxili bazarda konvertasiya etmək və bunun nəticəsində əldə edilmiş vəsaitin artıq məbləğini Borcalanın hesabına köçürülməsi şərti ilə Borcalanın borclarının ödənilməsinə yönəltmək;
4.3.10. Kredit hissələrlə verildiyi halda Borcalan (lar)ın əmlak və/və ya maliyyə vəziyyətindən asılı olaraq limiti birtərəfli qaydada dəyişmək və ya ləğv etmək (birdəfəlik kreditlərə şamil olunmur);
4.3.11. Kredit üzrə hesabdan çıxarışının verilməsinə görə Borcalandan bankın tarifləri ilə müəyyən edilmiş məbləğdə haqqın ödənilməsini tələb etmək, əks halda çıxarışın verilməsindən imtina etmək.

**<u>4.4. Kreditorun öhdəlikləri:</u>**

4.4.1. Hazırki şərtlər/tərəflər arasındakı bağlanan digər müqavilələrin şərtlərinə uyğun olaraq “Borcalan”a kreditin verilməsini təmin etmək;
4.4.2. «Borcalan»a müvafiq cari və ya digər bank hesabı açmaq;
4.4.3. Hazırki şərtlər/tərəflər arasındakı bağlanan digər müqavilələr üzrə şərtləşdirilmiş müddətdə və qaydada «Borcalan»a kredit vermək və ya kredit xətti ayırmaq və ya ayrılmış kredit xətti üzrə kredit vermək (Borcalanın ödəmə qabiliyyəti əhəmiyyətli dərəcədə pisləşməsi halı Bank tərəfindən müəyyən edilməsi halı istisna olmaqla);
4.4.4. Bu Şərtlərin 4.3.11-ci bəndinin tələbləri nəzərə alınmaqla «Borcalan»ın tələbi ilə müvafiq hesab üzrə çıxarış vemək;
4.4.5.Hazırki şərtlər/tərəflər arasındakı bağlanan digər müqavilələr, Azərbaycan Respublikasının qanunvericiliyi üzrə digər öhdəlikləri yerinə yetirmək;

**5. Mübahisələrin həll edilməsi**

5.1. Hazırki şərtlər/tərəflər arasındakı bağlanan digər müqavilələr, Azərbaycan Respublikasının qanunvericiliyi üzrə nəzərdə tutulmuş tələblərin, öhdəliklərin, digər şərtlərin

yerinə yetirilməsi ilə əlaqədar mübahisələr Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə tənzimlənir.
5.2. Müvafiq tələblər, öhdəliklər, şərtlərdən irəli gələn mübahisələr baş verərsə, tərəflər onların danışıqlar yolu ilə həll edilməsi üçün tədbirlər görməyi öhdələrinə götürürlər.
5.3. Mübahisələrin danışıqlar yolu ilə həll edilməsi mümkün olmadığı hallarda, tərəflər arasında baş vermiş mübahisələrə Azərbaycan Respublikasının səlahiyyətli məhkəmə orqanları tərəfindən baxılır və həll olunur.

**6. Müraciətlərə baxılma, rekvizitlər və digər yekun müddəalar**

6.1. Tərəflər arasında «Kredit (kredit xətti) verilməsinə dair ümumi şərtlərin» qəbul edilməsi barədə müvafiq **Müqavilələr** imzalanmaqla və möhürü olan tərəfin möhürü vurulduğu andan və ya Bank tərəfindən məsafədən xidmətin göstərilməsi tətbiq edildikdə "Tərəflərin" gücləndirilmiş elektron imzası ilə təsdiq edildiyi andan hüquqi qüvvəyə minir və və Müqavilə üzrə müəyyən edilmiş müddət ərzində, lakin hər bir halda "Borcalan"ın "Kreditor" qarşısında olan bütün öhdəlikləri tam icra edilənədək qüvvədə olacaqdır.
6.2. Tərəflər arasındakı müvafiq Müqavilələr, habelə onlara və bu şərtlərə edilmiş bütün və dəyişikliklər bu şərtlərin ayrılmaz hissəsi olan yazılı və yaxud tərəflərin razılığı ilə digər davamlı daşıyıcıda tərtib edilə və elektron təsdiq edilə bilər.
6.3. Bütün tələblər, məlumatlar, xəbərdarlıqlar və digər müraciətlər tərəfin təqdim etdiyi ünvana, elektron poçt ünvanına (email), telefon nömrəsinə və poçtla çatdırıldığı andan qəbul edilmiş hesab edilirlər.
6.4. Bu şərtlər daxilində kreditin verilməsinə və ya kredit xəttinin ayrılmasına dair "Kreditor" tərəfindən Borcalana ətraflı məlumat verildi və müvafiq şərtlər izah edildi. "Borcalan" müvafiq Müqavilələri imzalamaqla müəyyən edilmiş şərtlərlə kreditin/kredit xəttinin alınmasına razılığını bildirir.
6.5. Müraciətlərə (şikayət, ərizə və təkliflər) baxılması üçün əlaqə:
1) "Premium Bank" ASC, Ünvan: Bakı şəhəri, Akademik H.Əliyev 131 A, fax: (012) 4982042, email poçt ünvanı: complaint@premiumbank.az website: www.premiumbank.az, qaynar xətt: 012 931;
2) Azərbaycan Respublikasının Mərkəzi Bankının ünvanı: AZ1014, Azərbaycan Respublikası, Bakı şəh., R.Behbudov küç. 90, qaynar xətti: 012 (966) +994124935058;
Göstərilmiş ünvanlar rəsmi ünvanları sayılır.
6.6. Borcalana Kreditor tərəfindən məktub, elektron poçt ünvanı (e-mail), faks, sms və İnternet Bank xidməti ilə göndərilən məlumat yazılı verilmiş məlumata bərabər tutulur.
6.7. Bu şərtlərin hər hansı bir bəndinin etibarsız hesab edilməsi bütövlükdə şərtlərin etibarsız hesab edilməsinə səbəb olmur.
6.8. Bu Şərtlər və onun çərçivəsində bağlanan əqdlər hər bir hal üzrə Tərəflərin qarşılıqlı razılığı ilə mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə imzanın faksimilesindən, elektron imzadan və ya şəxsi imzanın başqa analoqundan, o cümlədən rəqəmsal alətlər vasitəsilə təsdiq, habelə elektron sənəd mübadiləsi üsulundan istifadə etməklə imzalana bilər. Bu qaydada imzalanmış sənəd əsl əl imzası ilə imzalanmış kimi qəbul edilməsi istisna edilmir.

***Müraciətlərə (şikayət, ərizə və təkliflər) baxılması üçün əlaqə:***

***1) "Premium Bank" ASC, Ünvan: Bakı şəhəri, Akademik H.Əliyev 131 A, fax: (012) 4982042, email poçt ünvanı: complaint@premiumbank.az website: www.premiumbank.az, qaynar xətt: 012 931;***
***2) Azərbaycan Respublikasının Mərkəzi Bankının ünvanı: AZ1014, Azərbaycan Respublikası, Bakı şəh., R.Behbudov küç. 90, qaynar xətti: 012 (966) +994124935058;***